# Cənazə namazının müxtəsər təlimi

**Cənazə namazı dörd təkbirdən - “Allahu əkbər” ifadəsindən ibarətdir. Dörd dəfə “Allahu əkbər” deyilir və hər dəfə əllər qaldırılır, sonra sağ əl sol əlin üzərinə qoyulub sinədə bağlanır.**

---

**1**



**Birinci təkbirdən** sonra **"Əuzu billəhi minəş şeytanir racim. Bismilləhir rahmənir rahim"** - sözləri deyilib *fatihə surəsi səssiz oxunur.*

**Əlhəmdu lilləhi Rabbil aləmin. Ər-Rahmənir-Rahim. Məliki yəumiddin. İyyəkə nə'abudu və iyyəkə nəstəin. İhdinəs-sıratal mustəqim. Sıratal-ləzinə ən əmtə aleyhim ğayril məğdubi aleyhim vələd'da-lliin! Əmin!**

---

**2**



**İkinci təkbir** edilib Peyğəmbərə ﷺ salavat deyilir.

**Allahummə salli alə Muhəmmədin və alə ali Muhəmməd kəmə salleytə alə İbrahimə və alə ali İbrahim. Və bərik alə Muhəmmədin və alə ali Muhəmməd kəmə bəraktə alə İbrahimə və alə ali İbrahim fil aləmin innəkə həmidun məcid.**

---

**3**



**Üçüncü təkbir** edilib ölən üçün dua edilir.

**Allahummə-ğfir lihəyyinə: və məyyitinə: və şə:hidinə: və ğa:ibinə: və zəkərinə: və unsə:nə: və sağı:rinə: və kəbi:rinə:!**

---

**4**



**Dördüncü təkbir** edilib bir az fasilə verilir və sonra sağ tərəfə **"Əssələmu aleykum və rahmətullah"** sözləri ilə salam deyilir.

---

**Qeyd:** Vəfat edən yetkin insan və uşaq üçün sünnədə gələn digər duaları **“Səhih dua və zikrlər”** kitabçasından oxuya bilərsiniz.

# Cənazə namazının qılınma qaydası




Kişinin və qadının cənazəsinin qoyuluş qaydası eynidir:
**sağ çiyni qibləyə doğru olmalıdır.**




Kişinin cənazə namazını qılarkən namazı qıldıran şəxs cənazənin **baş hissəsində** durmalıdır.




Qadının cənazə namazını qılarkən namazı qıldıran şəxs cənazənin **orta hissəsində** durmalıdır.




Kişiyə və qadına cənazə namazı eyni anda qılındıqda kişinin cənazəsi **imama yaxın** qoyulur, sonra qadının cənazəsi qoyulur. Bunlardan əlavə uşaq cənazəsi də olarsa, kişi ilə qadının cənazəsinin **ortasına** qoyulur.